Ədəbiyyat qəzeti

# XİLASKAR



**Qəzənfər PAŞAYEV**
*Əməkdar elm xadimi, professor*

Ümumxalq məhəbbəti qazanmaq, könüllərdə əbədi məskən salmaq böyük xoşbəxtlikdir.

Vətən müharibəsində xalqımıza başucalığı gətirən qələbəmizin memarı, Ali Baş Komandanımız İlham Əliyevə həsr olunan saysız-hesabsız şeirləri, poemaları, publisistik və elmi publisistik yazıları, kitabları oxuduqca, bəstəkarlarımızın mahnılarını dinlədikcə qürur hissi keçirirəm. Bu, Prezidentimizin titanik zəhmətinə verilən qiymətdir.

Üç əsrə yaxın bir dövrdə torpaqlarımızın hissə-hissə itirilməsinə son qoyuldu, mənliyimiz geri qaytarıldı, xalqlar arasında qürurla gəzmək bizə də qismət oldu. Ən yaralı yerimiz, mədəniyyət ocağımız Qarabağ, Qarabağın döyünən ürəyi Şuşa azad edildi.

Müharibənin gedişində Prezidentimiz qüdrətli sərkərdə və şəxsiyyət kimi dünya tarixinə düşmək hüququ qazandı, xalqımızın fəxrinə çevrildi.

Vətən müharibəsinin gedişində Ali Baş Komandanımızın müdrik sərkərdə və dünya miqyaslı müdrik siyasətçi olduğu sübuta yetdi.

Ağdam, Laçın və Kəlbəcər rayonlarının qan tökülmədən, şəhid vermədən azad edilməsi Ali Baş Komandanımızın müdrikliyinin yeni qatını üzə çıxardı.

Bütün deyilənlər qələm sahiblərinə haqq verir ki, Ali Baş Komandanı xalqın şüurunda yaşatmaq, əbədiləşdirmək üçün yazıb-yaratsınlar, bu müqəddəs işi vicdan borcu hesab etsinlər.

Lakin gün kimi aydın bir həqiqət də vardır.

Böyük şəxsiyyətlər haqqında mötəbər sözü böyük həyat təcrübəsi olan, dünyanın keşməkeşlərini dərindən duyan adamlar deyəndə daha mötəbər olur. Bu baxımdan Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun təzəcə çapdan çıxmış "Xilaskar İlham Əliyev" kitabı xüsusilə fərqlənir.

Tarixi şəxsiyyətlər haqqında yazmaq nə qədər şərəfli və məmnunluq gətirən iş olsa da, o qədər də çətin və məsuliyyətli bir işdir. Bəri başdan deyim ki, müəllif bu məsuliyyətli işin öhdəsindən şərəflə gəlmişdir.

320 səhifəni əhatə edən, ədəbiyyatşünaslıq elmimizin iftixarı Yaşar Qarayevin təbirincə desək, bu "qalın və qalan" kitabın redaktoru Əməkdar jurnalist İxtiyar Hüseynli, ön sözün müəllifi görkəmli ictimai xadim Mübariz Qurbanlıdır. "Şanlı Vətən savaşının mükəmməl salnaməsi" adlanan geniş və sanballı məqaləsində Mübariz müəllim kitabın məziyyətlərindən hərtərəfli bəhs edir. Müəllif "Xilaskar İlham Əliyev" kitabını salnamə adlandırmaqla bir çox mətləblərə aydınlıq gətirir.

Vaxtında yazılmış "Xilaskar İlham Əliyev" gələcək nəsillərə ünvanlanan ölməz abidədir. Kitab elə yazılıb ki, sanki maraqlı bir bədii əsər oxuyursan. Kitabda müzəffər Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyilə əldə etdiyi tarixi zəfərdən, əzəli əbədi torpaqlarımızın qaytarılmasından, onun tarixi-siyasi əhəmiyyətindən danışılır, ciddi analiz aparılır.

"Xilaskar İlham Əliyev" kitabı dörd fəsildən ibarətdir. Hər fəsil ayrıca bitmiş əsər təsiri bağışlayır.

Əsər boyu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə geniş yer verilir. Bununla belə, Prezidentin başqa sahələrdə gördüyü möhtəşəm işlər də ciddi şəkildə müəllifin diqqət mərkəzində olur.

"Xilaskar İlham Əliyev" əsərinin I fəsli "Aprel xəbərdarlığı" adlanır. Burada çox maraqlı "İlham Əliyev zirvələri qaytardı", "Qüdrətli ordunun məğrur sərkərdəsi", "Sərkərdə mətinliyi və qətiyyəti", "İlham Əliyev qayıdışı təmin etdi", "Öndə Ali Baş Komandan idi", "Güclənmiş Azərbaycan gəlir" və s. kimi başlıqlı yazılar yer alır.

Gələnən nəticə qürur doğurur.

Aprel döyüşləri Azərbaycan xalqının, Azərbaycan dövləti və ordusunun şanlı qələbəsi kimi tarixə düşdü.

Bu fəsildə müəllif Ali Baş Komandanın Müdafiə Nazirliyinin "N" saylı Tərtər, Ağstafa, Goranboy, Beyləqan, Ağdam, Füzuli hərbi hissələrinə getməsindən, Vətən müharibəsində ordunun zəfərini təmin edən müasir hərbi texnika və silahlarla tanış olmasından, əsgərlərlə görüşlərindən, hətta onlarla nahar etməsindən bəhs edən fotolar da öz əksini tapıb.

Bu fəsildə müəllifin gəldiyi nəticə budur: Azərbaycan dayanmadan iqtisadi və hərbi potensialını gücləndirir, siyasi və diplomatik sahədə inadkarlıq və qətiyyətlə uğurlu fəaliyyət göstərir, beynəlxalq aləmdə nüfuzunu daim artırır, işğalçıya rahatlıq və dinclik vermir.

Sonrakı hadisələr "Xilaskar İlham Əliyev" kitabının müəllifinin uzaqgörənliklə dediyi "Güclənmiş Azərbaycan gəlir" fikrini tamamilə təsdiqləyir.

Bu çox gərəkli və vaxtında yazılmış əsərin II fəsli "Sərkərdənin gücü, Azərbaycanın qüdrəti" adlanır. Bu fəsil xalqın yaratdığı hikmətli "Ordun varsa, yurdun var" deyimi ilə başlayır və müəllifin məramını ortaya qoyur. Müəllif açıq şəkildə yazır ki, Sovet imperiyasının məkrli planları, Moskvanın məqsədli ikibaşlı oyunları nəticəsində Azərbaycan ədalətsiz hərbi münaqişəyə cəlb olundu. Ulu öndərimizin qayıdışından sonra Müdafiə Nazirliyinin tərkibində yaradılan, müəyyən siyasi partiyaların maraqlarını güdən batalyonlar ləğv edildi və nizami Azərbaycan ordusu yaradıldı. Tezliklə Horadiz hərbi əməliyyatı keçirildi və indiki Cocuq Mərcanlı kəndi də daxil olmaqla 22 yaşayış məntəqəsi işğaldan azad edildi.

Azərbaycanın yeni yaradılmış nizami ordusunun onlara üstün gəldiyini görən ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular.

Müəllif çox yaralı yerimizə toxunur: "O illər çox çətin və ağır dövr idi. Çünki dövlət büdcəsi boş idi. Bir milyondan çox qaçqın və məcburi köçkün çöllərdə qalmışdı. Dövlət onlara da qayğı göstərməli idi".

Qarabağ problemi İlham Əliyevin prezidentliyi dövründə daha da kəskinləşdi. Ermənilər havadarlarına arxalanaraq Qarabağda erməni dövləti yaratmaq fikrinə düşdülər.

Prezidentimiz böyük güclərin təzyiqinə sinə gərərək bütün gücünü ordu quruculuğuna yönəltdi. Artıq 2007-ci ildən etibarən Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsini ötdü.

Ulu öndərimiz Heydər Əliyevin yaratdığı Naxçıvanski adına Hərbi Məktəb daha da gücləndirildi, Aviasiya Akademiyası yaradıldı, Müdafiə Sənayesi Nazirliyi yaradıldı, Hərbi Dəniz Donanması üçün kadrlar hazırlayan məktəb yaradıldı, Sərhəd Qoşunları Məktəbi yaradıldı, Naxçıvan Muxtar Respublikasında Hərbi Məktəb fəaliyyətə başladı. Hətta Fövqəladə Hallar Nazirliyi nəzdində Hərbi Akademiya yaradıldı. İllərdən bəri Türkiyə, Rusiya və başqa ölkələrdə oxuyub gələn, ən müasir texnikadan istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərimiz meydana gəldi.

Bütün bunlar Ali Baş Komandanımızın uzaqgörən, müdrik siyasəti nəticəsində mümkün oldu.

Əsərin bu fəslində bir-birindən maraqlı "Güclü ordu, qüdrətli sərkərdə", "Sarsıdıcı zərbə", "İlham Əliyevin xəbərdarlığı", "İlham Əliyev qətiyyəti", "İlham Əliyev iradəsi" və s. kimi başlıqlı yazılarda Qarabağ müharibəsinə ciddi hazırlıqdan bəhs edilir.

"Xilaskar İlham Əliyev" kitabının III fəslini müəllif bütünlükdə "Vətən müharibəsinə və onun gedişinə" həsr edib. Bu fəsildə "İlham Əliyev "İrəli" əmri verdi", "İlham Əliyevin tarix və jurnalistika dərsləri", "Noldu, Paşinyan?!", "Ulu öndərin daha bir müqəddəs vəsiyyəti yerinə yetirildi", "Sənə minnətdarıq, Ali Baş Komandanımız!", "İlham Əliyev hünəri" və s. başlıqlı yazılar yer alır və maraqla oxunur.

"Xilaskar İlham Əliyev" kitabının IV fəsli "Zəfərin təntənəsi" adlanır. Burada "İlham Əliyev dərsləri", "Xilaskar", "Tarixə qızıl hərflərlə yazılan tarixi qələbə", "44 gündə dəyişdirilən reallıqlar", "İlham Əliyev dedi və etdi", "İlham Əliyev yeni tarix yazdı", "Müharibənin Azərbaycan modeli" başlıqlı ibrətamiz yazılarda qələbəmiz, yenilməz Ordumuz və Ali Baş Komandanımızdan ürəkdolusu danışılır.

Görkəmli jurnalist və ictimai xadim Bəxtiyar Sadıqovun çox maraqlı elmi-publisistik kitabını oxuyanda müharibə vaxtı hər an yanımızda olan, haqq-ədalət carçısı Rəcəb Tayyib Ərdoğanla bağlı "İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan" başlıqlı bir yazı görmək arzusu baş qaldırdı.

İndi Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələ başlayıb. Bu mərhələnin memarları istəkli Prezidentimiz İlham Əliyev və xalqımızın sevimlisi, Türkiyə Cümhuriyyətinin başçısı cənab Rəcəb Tayyib Ərdoğandır. Şübhə yoxdur ki, bu mərhələ hər iki qardaş dövlətin iqtisadi və siyasi cəhətdən daha da güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun daha çox artmasına xidmət edəcəkdir.

Bununla belə, "Xilaskar İlham Əliyev" kitabının məziyyətlərini saymaqla qurtaran deyil. Ən başlıcası Qarabağ müharibəsi və şanlı qələbəmiz dünyanın nizamının dəyişməsinə təsir edəcəkdir.

Böyük tarixi əhəmiyyət kəsb edən, son dərəcə vaxtında yazılmış bu kitab təkcə bugünkü nəsillər üçün nəzərdə tutulmayıb. Oxucularımız kitabda yer alan bir çox real faktlardan xəbərdardırlar.

Kitab gələcək nəsillərə, əsasən də tarixçilərə ünvanlanıb. Tarixçilər XXI əsrin birinci qərinəsi haqqında yazanda ən dəyərli mənbə kimi bu kitabdan bəhrələnəcəklər. Görkəmli jurnalist və ictimai xadim Bəxtiyar Sadıqovun məhəbbətlə yazılmış "Xilaskar İlham Əliyev" kitabına bu müstəvidən baxır və yüksək qiymətləndirirəm.

